| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | MGT 410, Təşkilati davranış, 6 AKTS |
| | **Departament** | Təhsil |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/26-cı tədris ilinin yaz semestri |
| | **Fənni tədris edən müəllim** | Haşımlı Lamiyə |
| | **E-mail:** | lhashimli@khazar.org |
| | **Mühazirə otağı/Cədvəl** | Nərimanov korpusu / Şənbə, 10:40 |
| | **Məsləhət saatları** | Tələbələrlə razılaşdırılan vaxtlarda |
| **Prerekvizitlər** | EDU101 Təhsilə giriş | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | seçmə | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | 1. Axundova N.F. Təşkilati davranış. Bakı 2014. 132 səh.<br>2. İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Bakı 2013. 280 səh.<br>3. Robbins Stephen P., & Judge Timothy A. (2012). Organizational Behavior.<br>4. Griffin, R. W. (2013). Organizational behavior. Managing people and organizations.<br>5. Pem Cons. Performansın idarə edilməsi. (Tərcümə) 2013. 118 səh.<br>6. Solonitsina A.A. Peşə etikasi və etiket. (Tərcümə edən: X. Həsənova) Bakı-2020. 157 səh.<br>7. Yan Fleminq. Kouçinq. (Tərcümə) 2018. 111 səh.<br>8. Cef Elred. Mentorluq. (Tərcümə) 2019. 128 səh. | |
| **Kursun təsviri** | Müasir iş dünyasında əməkdaşlardan yalnız tapşırıqları yerinə yetirmək deyil, çevik düşünmək, öyrənmək və dəyişən mühitə uyğunlaşmaq bacarığı da tələb olunur. Bu dəyişiklik işəgötürənlərlə əməkdaşlar arasındakı münasibətlərə və idarəetmə yanaşmalarına təsir göstərir.<br>Təşkilati davranış fərdlərin, qrupların və təşkilatların davranışlarını elmi və sistemli şəkildə öyrənən bir sahədir. Kursun məqsədi tələbələrə insan davranışının təşkilatdakı rolunu, motivasiya, liderlik, ünsiyyət, qrup dinamikası və təşkilati mədəniyyət kimi anlayışlar vasitəsilə başa salmaq və real iş mühitində bu bilikləri tətbiq etmək bacarığı qazandırmaqdır.<br>Fənn, tələbələrə insan davranışının fərdi və kollektiv səviyyədə idarə olunması yollarını anlamağa, müasir təşkilatlarda qarşıya çıxan davranış problemlərini analiz etməyə və effektiv qərarlar verməyə imkan yaradacaq. | |
| **Kursun məqsədləri** | Təşkilati Davranış fənninin əsas məqsədi təşkilat daxilində fərdlər və qruplar arasında yaranan münasibətləri sistemli şəkildə araşdırmaq, bu münasibətlərin formalaşmasına təsir edən amilləri müəyyənləşdirmək və nəticədə təşkilatın | |

| | | |
|---|---|---|
| | strateji hədəflərinə çatmaq üçün insan davranışlarını effektiv idarə etmək bacarıqlarını inkişaf etdirməkdir.<br>Fənn həmçinin sağlam təşkilati mədəniyyətin yaradılması, seçilən işçilərin peşəkar və şəxsi keyfiyyətlərinin artırılması, əməkdaşlar arasında səmərəli kommunikasiya qurulması, yaranan münaqişələrin konstruktiv həlli və güclü liderlik zəncirinin formalaşdırılması kimi mühüm aspektləri də əhatə edir.<br>Təşkilati Davranışın mahiyyəti ətraf mühit faktorlarının təsirini nəzərə alaraq, fərdlərin, qrupların və təşkilatların davranışlarının elmi üsullarla təhlil edilməsi, bu davranışların proqnozlaşdırılması və məqsədyönlü şəkildə optimallaşdırılmasıdır.<br>Bu fənn aşağıdakı əsas vəzifələri qarşısına məqsəd qoyur:<br>• Təsvir: Müxtəlif iş şəraitlərində insan davranışlarının sistematik şəkildə müşahidəsi və təsviri;<br>• Dərketmə: Müəyyən situasiyalarda fərdlərin davranış motivlərinin və səbəblərinin şərhi;<br>• Proqnozlaşdırma: Müxtəlif hallarda davranışların gözlənilən nəticələrinin qabaqcadan müəyyənləşdirilməsi, menecerin biliyi və intuisiyası əsasında qərarvermə qabiliyyətinin artırılması;<br>• İdarəetmə: İnsanların iş prosesində davranışlarının effektiv şəkildə təşkili və onların iş məhsuldarlığının yüksəldilməsi yollarının tətbiqi.<br>Nəticə etibarilə, Təşkilati Davranış fənni əmək fəaliyyətinin səmərəliliyini artırmaq məqsədilə təşkilatlarda insan faktorunun elmi təhlilinə əsaslanan və praktik tətbiqlərlə zənginləşdirilən müstəqil bir elmi sahədir. | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | - İdarəetmə psixologiyasına dair biliklərini artırmaqla ictimai və sosial münasibətləri iqtisadi və idarəetmə aspektindən təhlil edə biləcək;<br>- Təşkilati davranışa aid qəbul edilən qərarların nəticələrini nəzərə almaq bacarığına sahib olacaq;<br>- Menecment düşüncəsi ilə analitik təhlillər aparacaq, o cümlədən əmək fəaliyyətinin təşkili və insan resurslarının bu fəaliyyətin təmin olunmasındakı rolunu əsaslı şəkildə analiz edəcək;<br>- Komanda işi bacarıqlarını inkişaf etdirərək problemlərin həllinə birgə yanaşmanı təmin edəcək;<br>- Bilik və bacarıqlarını təkmilləşdirmək məqsədilə özünü və digərlərini qiymətləndirmək bacarığı qazanacaq.<br>Eyni zamanda, idarəetmədə baş verən hadisələrdən qaynaqlanan yeni situasiyalara uyğunlaşmaq bacarığı və təşəbbüskarlıq qabiliyyəti formalaşacaq. Təşkilatlarda insan resurslarının idarə edilməsinin inkişafı və formalaşması ilə bağlı məsələləri dərindən dərk edəcək və bu sahədə qanunvericiliyi öyrənəcək. Psixoloji təhsilə əsaslanaraq, komanda işi bacarıqlarını və problemlərin həllinə birgə yanaşmanı inkişaf etdirəcək, işgüzar ünsiyyət imkanlarını genişləndirəcək. | |
| **Tədris metodları** | Məşğələ | + |
| | Qrup müzakirəsi | + |

| | | | |
|---|---|---|---|
| | Praktiki tapşırıqlar | + | |
| | Praktiki məsələnin təhlili | + | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | **Aktivlik** | Hər həftə | 5 |
| | **Davamiyyət** | Hər dərs | 5 |
| | **Tapşırıq 1 (müsahibə və təqdimat bacarıqları)** | Aprel | 10 |
| | **Tapşırıq 2 (Layihə)** | May | 5 |
| | **Yoxlama (quiz)** | Mart | 5 |
| | **Aralıq imtahanı** | Aprel | 30 |
| | **Final imtahanı** | İyun | 40 |
| | **Yekun** | - | 100 |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Aktivlik:** Hər dərs saatında bir həftə öncə keçirilmiş mövzuya uyğun tapşırıq dinlənilir və müzakirə olunur. Aktivlik 0-5 bal şkalasında qiymətləndiriləcək.<br>**Davamiyyət:** Tələbələrin dərslərdə iştirakı məcburidir. Hər 3 dərs buraxıldıqda 1 bal davamiyyət balından çıxılacaq. Ümumi auditoriya saatının 25%-dən çox dərs buraxan tələbə imtahana buraxılmayacaq.<br>**Tapşırıq 1,2:** Semestrin əvvəlində hər bir tələbəyə tədqiqat xarakterli mövzu təqdim olunacaqdır. Tələbələr həmin mövzu üzrə aid tapşırıqları aprel–may ayları ərzində yerinə yetirməlidirlər.<br>Tapşırıq 1: Şifahi təqdimat və müsahibə bacarıqları — 0–10 bal şkalası üzrə qiymətləndiriləcəkdir.<br>Tapşırıq 2 (Layihə): Rəsmi yazılı kommunikasiya və praktiki məsləhətləşmə — 0–5 bal şkalası üzrə qiymətləndiriləcəkdir.<br>Müəyyən edilmiş müddətdə təqdim olunmayan və ya gecikdirilmiş tapşırıqlar 0 (sıfır) bal ilə qiymətləndiriləcəkdir.<br>**Yoxlama (Quiz):** Keçirilmiş mövzular üzrə mart ayının sonu 5 açıq sual olmaqla 1 quiz təşkil olunacaq. Quiz işi 0–5 bal qiymətləndiriləcək.<br>**Aralıq imtahan:** İlk 5 mövzu üzrə test və açıq suallar formasında keçiriləcək.<br>**Final imtahan:** 6–15 mövzu üzrə test və açıq suallar formasında keçiriləcək.<br>**Fəallıq:** Dərslər interaktiv şəkildə keçiriləcək. Tələbələr diskussiyalarda, sual-cavablarda, prezentasiya və geniş araşdırmalarla fəal iştirak etməlidirlər.<br>**Plagiat siyasəti:** Plagiat edən tələbələr 0 bal alacaq. Başqa müəlliflərin yazılarından istifadə edərkən mütləq istinad göstərilməlidir.<br>**Davamiyyət siyasəti:** Tələbələr Xəzər Universitetinin davamiyyət qaydalarına riayət etməlidirlər. Xəstəlik və ya rəsmi icazə (dekanlıq tərəfindən təsdiq edilmiş) istisna təşkil edir. Semestr ərzində ümumi auditoriya saatının 25%-dən çox dərs buraxan tələbə imtahana buraxılmayacaq. | | |

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|

| | | | |
|---|---|---|---|
| 1. | 21.02.26 | Təşkilati davranış: əsas anlayışlar | Müasir prizmadan təşkilati davranış və onun tarixi. Təşkilati davranışın əsasları. Menecment, təşkilat və təşkilati davranış. Təşkilati davranışın vacibliyi. Təşkilati davranışın elementləri. Təşkilati davranışın modelləri. Analiz səviyyələri. (İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Bakı 2013.səh 9-45) |
| 2. | 28.02.26 | Şəxsiyyət, onun təşkilatda rolu və davranışı | Fərdi davranışın əsasları. Fərdi davranış. Fərdi müxtəlifliklər. Şəxsiyyətin ölçüləri, fiziki və intellektual keyfiyyətlər. Şəxsi dəyərlər və əxlaq. Təşkilatlarda əxlaq mühitinin yaxşılaşdırılması. Şəxsiyyətin formalaşdırılması. Təşkilatlarda şəxsiyyət faktorları. A və B tipli şəxsiyyətlər. İş əxlaqı orientasiyası. Effektiv menecerlər üçün arzuolunan şəxsiyyət xüsusiyyətləri. (İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Bakı 2013. səh 46-) |
| 3. | 07.03.26 | Təşkilatlarda motivasiya, öyrənmə və davranış | Motivasiya və onun əhəmiyyəti. Motivasiya barəsində nəzəriyyələr. Motivasiya və davranış. “X” və “Y” nəzəriyyəsi. Təşkilatlarda motivasiyanın artırılması. Menecerlər üçün motivasiya artırıcı yanaşmalar. Öyrənmə prosesinin komponentləri. Öyrənmə nəzəriyyələri. (İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Bakı 2013.səh 44-73) |
| 4. | 14.03.26 | Təşkilatlarda davranış prinsipləri və davranış kodeksi | Davranış kodeksinin məqsədi və əhatə dairəsi. Davranış kodeksi. Münasibət və dərk etmə. Münasibətin formalaşması və dəyişməsi. Münasibətin təşkilati davranışda vacibliyi. Qəbuletmə. |

| | | | |
|---|---|---|---|
| | | | Təəssürat menecmenti. (İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Bakı 2013.səh 158-166) |
| 5. | 21.03.26 | Liderin rolu və təşkilati davranışın idarəsi | Liderin xüsusiyyətləri və liderin vəzifələri. Liderliklə menecment arasındakı fərq. Liderlik növləri. Liderlik nəzəriyyələri. Təşkilatlarda liderlik perspektivləri. (İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Bakı 2013.səh 74-86) |
| 6. | 28.03.26 | Qrup, onun təşkilatda rolu və davranışı | Qrup dinamikası. Qrupa ehtiyac, qrup tipləri. Qrup formalaşması. Qrup normaları. Qrup münaqişəsi. Münaqişənin növləri və səviyyələri. Güc, gücdən istifadə. Siyasi davranış və təşkilat siyasəti. (İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Bakı 2013.səh 106-148) |
| 7. | 04.04.26 | Təşkilatda stres, onun idarəedilməsi | Stres nədir? Stresli insanı necə tanımaq olar? Pozitiv və neqativ streslər. Stresin yaratdığı problemlər. Fərdlərin öz daxilindəki qarşıdurmalar. Fərdlər arası qarşıdurmalar. Fərd və qrup arası qarşıdurmalar. Qrup münaqişəsi. Münaqişənin növləri və səviyyələri. (İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Bakı 2013.səh 86-106) |
| **Aralıq imtahanı** | | | |
| 8. | 11.04.26 | Təşkilatlarda etik davranışlar onun idarə edilməsi | İş etikası nədir? Peşə əxlaqı, iş görmə əxlaqı və iş əxlaqı arasında fərq. İş əxlaqı orientasiyası. Effektiv menecerlər üçün arzuolunan şəxsiyyət |

| | | | |
|---|---|---|---|
| | | | xüsusiyyətləri. (Solonitsina A.A. Peşə etikasi və etiket. (Tərcümə) Bakı-2020. səh-1-34) |
| 9. | 18.04.26 | Təşkilati davranışda performansın idarə edilməsi | Yüksək performans göstərən komandanın yaradılması. Performans söhbətlərinin aparılması. Komandalarla performans söhbətləri. Performans menecmenti üzrə əsas çətinliklər. Performans menecmenti sisteminin inkişaf etdirilməsi. (Pem Cons. Performansın idarə edilməsi. səh 4-14). |
| 10. | 25.04.26 | Təşkilatlarda kouçinq və mentorluq. Mentorluq və kouçinq arasındakı fərqlər | Kouçing nədir? Kouçun rolu, Kouçinq kimlərə lazımdır? Kouçing bacarıqları. Mentorluq. Mentorluqdan istifadə üsulları, dəyişikliyin idarə edilməsi. Mentor və mentorluq alan şəxsin müəyyən edilməsi. Rəhbərin mövqeyi. Mentorluq, kouçinq və qiymətləndirmənin bir-birindən fərqləndirilməsi. (Yan Fleminq. Kouçinq. səh 5-25., Cef Elred. Mentorluq. səh. 7-35) |
| 11. | 02.05.26 | Kommunikasiyalar və ünsiyyət | Təşkilati ünsiyyəti. Ünsiyyət prosesi. Ünsiyyətdə maneələr. Ünsiyyət metodları. Ünsiyyət şəbəkələri. Təşkilati ünsiyyətin formaları. İki tərəfli kommunikativ proses. Zəifləyən kommunikasiyalar. Yüksələn kommunikasiyalar. Üfüqi kommunikasiyalar. Qeyri-formal ünsiyyət. Effektiv kommunikasiyalar yolunda maneələr. (Axundova N. F. Təşkilati davranış, Dərs vəsaiti, Bakı, 2014. səh. 100- 109) |

| | | | |
|---|---|---|---|
| 12. | 09.05.26 | Təşkilati mədəniyyət | Təşkilati mədəniyyət nədir? Təşkilati mədəniyyətin funksiyaları. Təşilati mədəniyyətin mərhələləri. Təşkilati mədəniyyətin mənbələri. Təşkilatın ideologiyası. (Axundova N. F. Təşkilati davranış, Dərs vəsaiti, Bakı, 2014. səh. 109-116.) |
| 13. | 16.05.26 | Virtual və rəqəmsal iş mühiti və komandaların idarəsi. | Virtual komandaların xüsusiyyətləri. Rəqəmsal kommunikasiya və alətlər. Motivasiya və məhsuldarlıq. Klassik təşkilati mədəniyyət və müasir virtual komandalar. (Robbins, S. P., & Judge, T. A. Organizational Behavior. 15 edition, 490-493) |
| 14. | 23.05.26 | Təşkilati qərarvermə və rəhbər rolu | İdarəetmə qərarlarının mahiyyəti. Rəhbərin idarə qərarları. İdarəedən şəxsin psixoloji cəhətləri. İdarə qərarlarının qəbulunda rəhbərlərin obyektiv və subyektiv səhvləri. Psixohəndəsi fiqurların köməkliyi ilə idarə qərarlarının yoxlanılması. (Axundova N. F. Təşkilati davranış, Dərs vəsaiti, Bakı, 2014. səh. 122-129). |
| 15. | 30.05.26 | İnsan həyatında karyera və stress | İş karyerası. Dinamik və statistik, şaquli və üfiqi karyera. Karyeranın uğuru. Karyeranın inkişafı. Karyera mövqeləri. Karyeraya uyğunlaşma. Karyerada şərti olaraq bir neçə mərhələlər. (Axundova N. F. Təşkilati davranış, Dərs vəsaiti, Bakı, 2014. səh. 116-122) |
| **Final imtahanı** | | | |